DÖVLƏT VERGİ XİDMƏTİ

# “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz”in verilməsi barədə bunları bilməlisiniz!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2025-ci il tarixdən etibarən**

“Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” əsasında fəaliyyət göstərən şəxslər vergi orqanı ilə razılaşma müqaviləsini bağlayaraq hesablanmış vergini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarını tam məbləğdə ödədikdən sonra “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz”i **vergi orqanına müraciət etmədən** əldə edə bilərlər.

BAKI — 2025

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

**Xatırladırıq ki,** "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz"i aşağıdakı şəxslər hər növbəti dövr üçün əldə etməlidirlər:

- toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət ilə məşğul olan şəxslər
- fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət ilə məşğul olan şəxslər
- çəkməçi, pinəçi
- saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri ilə məşğul olan şəxslər
- fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant)
- nəqqaşlıq emalatxanalarının fəaliyyəti ilə məşğul olan şəxslər
- fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər
- fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər
- fərdi qaydada baytarlıq xidməti ilə məşğul olan fiziki şəxslər
- mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqını ödəyənlər istisna olmaqla)
- ailə kəndli təsərrüfatlarının başçıları (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqını ödəyənlər istisna olmaqla).